

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 196 (23.358)

*18 oktyabr 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədri İqor Popovu, ABŞ-dan olan həmsədri Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin idarə heyətinin sədri Saleh Məmmədovu qəbul edib.

Prezident İlham Əliyev deyib ki, yol tikintisi Azərbaycanda geniş vüsət alıb. Hər il bizdə min kilometr yeni yol çəkilir. Bu il də istisna deyil. Şadam ki, Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında bu sahədə də irəliləyiş var. Keçən dəfə yolların keyfiyyətinə görə biz 34-cü yerdə olmuşuqsa, bu il 27-ci yerdəyik və MDB məkanında birinci yerdəyik. Bu, onu göstərir ki, yol infrastrukturuna qoyulan sərmayə öz səmərəsini verir. Yol tikintisi geniş vüsət alıb və yollar yüksək keyfiyyətlə tikilir. Belə də davam edin. Azərbaycanın bütün yolları bundan sonra da ən yüksək standartlara cavab verməlidir.

## Muxtar respublikada payızlıq taxıl əkini aparılır





Taxılçılığın inkişafı əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında mühüm rol oynayır. Muxtar respublikada torpaq mülkiyyətçilərinin texnika, toxum və gübrə təminatı, qapalı suvarma şəbəkələrinin qurulması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması taxılçılığın inkişafına və bol məhsul istehsalına imkan verir.

Oktyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin taxıl əkini sahələrində olmuş, muxtar respublikada taxıl əkininin gedişi ilə maraqlanmışdır.

Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev məlumat vermişdir ki, muxtar respublikada 2020-ci ilin məhsulu üçün 32 min hektar sahədə taxıl əkiləcəkdir ki, onun da 6 min hektarı dəmyə əkinidir. Taxıl əkininə lazımi qədər texnika və avadanlıq cəlb olunmuşdur. Əkin şırım üsulu ilə aparılır. Bu məqsədlə toxumsəpənlərə şırımaçan aqreqat qoşulmuşdur. "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətində, "Araz" Elm-İstehsalat Birliyinin yardımçı təsərrüfatında və torpaq mülkiyyətçilərində tələbata uyğun toxum ehtiyatı yaradılmışdır. Əkindən əvvəl toxumlar dərmanlanmış və toxumçuluq laboratoriyasında analiz olunaraq sertifikat verilmişdir. Taxıl əkini hər bir sortun səpin normasına uyğun olaraq 180-200 kiloqram hesabı ilə aparılır, toxumla birlikdə torpağın strukturuna uyğun olaraq hər hektara 100 kiloqram zənginləşdirilmiş gübrə verilir. Bu günə qədər muxtar respublikada 21 min 901 hektar sahədə şum, 5 min hektardan artıq sahədə isə əkin aparılmışdır.

Bildirilmişdir ki, "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 1350 hektar sahədə payızlıq taxıl əkini aparılacaqdır. Bu günə qədər 360 hektar əkilib. Əkində yerli şəraitə uyğun "Qobustan", "Fatimə", "Quality" və "Bezostya" məhsuldar toxum sortlarından istifadə olunur. Əkinə təsərrüfatın 20 texnikası cəlb olunmuşdur. Şırım üsulu ilə əkin və ərazidə qurulan qapalı suvarma şəbəkəsi məhsuldarlığı xeyli artırır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikada kənd təsərrüfatının inkişafı sahəsində görülən işlərin taxılçılığın inkişafı üçün geniş imkanlar yaratdığını bildirərək demişdir: Mütərəqqi əkin və suvarma metodlarının tətbiqi, toxum və su ehtiyatının yaradılması, texnika təminatı imkan verir ki, muxtar respublikada taxıl əkinləri aqrotexniki qaydalara uyğun aparılsın. "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması torpaq mülkiyyətçilərinin məhsuldar toxum sortları ilə təmin olunmasına, eyni zamanda yeni iş yerlərinin açılmasına səbəb olmuşdur. Toxumların dərmanlanması, şırım üsulu ilə əkinə üstünlük verilməsi, dövlət tərəfindən hər il yüz hektarlarla qapalı suvarma şəbəkələrinin qurulması məhsuldarlığı artırmışdır. Bu işlərin görülməsində məqsəd ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsidir.

Ali Məclisin Sədri muxtar respublikada kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənildiyini bildirmiş və bu işdə əməyi olanlara təşəkkür etmişdir.

Ali Məclisin Sədri torpaq mülkiyyətçiləri arasında aqrotexniki qaydalara əməl olunması ilə bağlı maarifləndirmə işlərinin aparılması, əkin atlaslarına əməl edilməsi, əkinə cəlb olunmuş texnikalara yerində texniki xidmətin göstərilməsi, qapalı suvarma şəbəkələri qurulacaq ərazilərin xəritələşdirilməsi, payız suvarma mövsümünə başlanılması və taxıl əkininin mütəşəkkil başa çatdırılması barədə aid qurumlara tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Ümummilli lider Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu" mövzusunda elmi-praktik konfrans



*Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 28-ci ildönümü münasibətilə "Ümummilli lider Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu" mövzusunda elmi-praktik konfrans keçirib.*

Partiyanın Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, dosent Elman Cəfərli konfransı giriş sözü ilə açaraq qeyd edib ki, Azərbaycan tarixinin yetişdirdiyi ən böyük siyasi dühalardan biri olan ümummilli lider Heydər Əliyevin 1990-cı il iyulun 22-də Moskvadan doğma Naxçıvana qayıdışı müasir tariximizin son dərəcə ağır və mürəkkəb dövründə dövlətçiliyimizin xilasının başlandığı gün kimi tariximizə həkk olunub. Bu qayıdışın obyektiv tarixi zərurət olduğunu həmin il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin ulu öndərin sədrliyi ilə keçirilən ilk sessiyasının qəbul etdiyi tarixi qərarlar da təsdiqlədi. 1991-ci il sentyabrın 3-də isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında Ali Məclisin Sədri seçilən ümummilli liderin siyasi fəaliyyəti bilavasitə müstəqilliyimizin qorunması və əbədiləşdirilməsi mərhələsinə çevrildi. Məhz buna görə xalqımız 1993-cü ilin iyununda Azərbaycan dövlətçiliyinin sükanını yenidən dahi şəxsiyyətə etibar etdi.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı İdarə Heyətinin üzvü, "Naxçıvan" Universitetinin Tədris şöbəsinin müdiri Anar Abuzərli "Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır" mövzusundakı çıxışında bildirib ki, ölkəmizin müstəqilliyinin təməli, zəruri bazası görkəmli dövlət xadimi Heydər Əliyevin respublikamıza birinci rəhbərliyi dövründə yaradılıb. 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini elan etdikdən dərhal sonra xalqımız ağır problemlər məngənəsinə düşdü. Belə bir taleyüklü anda ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə Bakıya getməsi və 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri seçilməsi ilə xalqımızın və dövlətimizin milli qurtuluş hərəkatının zəfər yürüşü başladı. Müstəqil Azərbaycanın xilaskarı və qurucusu kimi şərəfli və məsuliyyətli bir missiyanı uğurla həyata keçirərək hələ sağlığında xalqın qəlbində əbədiləşən ümummilli liderin siyasi xətti bu gün də ölkəmizdə dönmədən davam etdirilir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin üzvü, Naxçıvan Müəllimlər İnstitutunun III kurs tələbəsi Qumru Camalova "Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında dövlət gənclər siyasəti", təşkilat aparatının baş təlimatçısı Cəlal Həsənli "Yeni Azərbaycan Partiyası və müstəqil Azərbaycan" mövzularında çıxış ediblər. Çıxışlarda ümummilli liderin gənclər siyasətinin muxtar respublikada da uğurlu davamından, partiyanın 27 illik tarixinin, əslində, müstəqil Azərbaycan dövlətinin tarixini əks etdirməsindən bəhs olunub. Qeyd edilib ki, ölkəmizin sürətli iqtisadi inkişafı, milli-mədəni yüksəlişi, xarici siyasətdəki ardıcıl uğurları və cəmiyyətdəki dayanıqlı siyasi sabitliyi dövlətçiliyimizlə yanaşı, partiyanın da 27 illik tarixinin şərəfli və qürur hissi yaradan məqamlarıdır.

**Nail ƏSGƏROV**



18 oktyabr Dövlət Müstəqilliyi Günüdür

# Müstəqilliyimiz milli sərvətimizdir

*Azərbaycan xalqının tarixi azadlıq, müstəqillik uğrunda çətin və şərəfli mübarizələrlə zəngindir. Ötən əsrdə iki dəfə dövlət müstəqilliyini elan edən ölkəmiz bu yolda minlərlə şəhid vermişdir. 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsi qəbul edərək tam dövlət hakimiyyətinə malik Azərbaycan Xalq Cümhuriyyətinin yarandığını bəyan etmişdir. Müsəlman Şərqinin və Türk dünyasının ilk cümhuriyyəti bir çox xarici dövlətlər tərəfindən tanınmış, müstəqil dövlətin təsisatları yaradılmışdır. Təəssüf ki, cümhuriyyət cəmi 23 ay fəaliyyət göstərmişdir. Sovet işğalındakı 70 illik bir müddətdə Azərbaycan xalqı özünün azadlıq ideallarını, müstəqillik arzularını yaşatmış, XX əsrin sonlarında ikinci dəfə müstəqillik əldə etmişdir: 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olunmuşdur.*

Ötən əsrin 90-cı illərində xalqımız dövlət müstəqilliyinə nail olmuşdur. Azərbaycanın milli müstəqillik konsepsiyası isə daha əvvəl ümummilli lider Heydər Əliyev tərəfindən işlənib hazırlanmışdır. Ulu öndər sovet totalitar rejiminin tüğyan etdiyi dövrlərdə böyük uzaqgörənliklə Azərbaycanın gələcək müstəqilliyi üçün mühüm hərbi, iqtisadi, sosial, ideoloji tədbirlər həyata keçirmişdir. Dahi şəxsiyyət 1969-cu ildə siyasi hakimiyyətə gəldiyi ilk gündən başlayaraq böyük uzaqgörənliklə Azərbaycanın gələcək müstəqilliyi üçün təməlləri hazırlamışdır.

Dahi şəxsiyyət 1990-cı il iyulun 22-də Naxçıvana gəldikdən sonra burada dövlət müstəqilliyi uğrunda və məqsədyönlü siyasi mübarizə aparmışdır. 1990-cı il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin ulu öndərin sədrliyi ilə keçirilən ilk sessiyasında Azərbaycanın müstəqilliyi baxımından son dərəcə böyük əhəmiyyətə malik olan taleyüklü qərarlar qəbul edildi. Sessiyada Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı, Naxçıvan MSSR Ali Soveti Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı. Milli istiqlal rəmzi olan üçrəngli bayrağımız ilk dəfə bu sessiyanın tarixi qərarı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edildi, həmin bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət rəmzi kimi tanınması haqqında Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət qaldırıldı. Ali Məclisin ilk sessiyasında Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edən mühüm məsələlər – 1990-cı il 20 Yanvar faciəsi və Dağlıq Qarabağ münaqişəsi də müzakirə edildi. 31 dekabrın "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi qeyd olunması ilə bağlı tarixi qərar qəbul edildi. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı. Rus qoşun hissələri muxtar respublikadan çıxarıldı, Naxçıvan Muxtar Respublikasının müdafiəsi üçün sistemli tədbirlər görüldü, ölkəmizdə ilk dəfə Naxçıvanda nizami ordu hissələri yaradıldı. Bir sözlə, Naxçıvan xalqımızın müstəqillik mübarizəsinin mərkəzinə çevrildi.

Belə bir tarixi məqamda – 18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Xalqımız şərəfli mübarizə, çoxsaylı qurbanlar bahasına müstəqillik qazandı. Lakin bu, müstəqilliyi qorumaq uğrunda aparılacaq daha gərgin mübarizələrin başlanğıcı idi. Təəssüf ki, müstəqilliyimizin ilkin mərhələsində – 1991-1993-cü illərdə ölkədə hərc-mərclik, özbaşınalıq, siyasi-iqtisadi tənəzzül baş alıb gedirdi. Xarici təcavüz, ölkə ərazisinin 20 faizinin işğalı, yüzlərlə insanın şəhid olması, qaçqın və məcburi köçkün problemləri, siyasi qarşıdurmalar son həddə çatmış, separatçı meyillər daha da güclənmişdi. Azərbaycan dünya xəritəsindən silinmək təhlükəsi qarşısında qalmışdı. Müstəqilliyimizin qorunub saxlanılması, qarşıya qoyulmuş məqsədlərə nail olmaq, milli həmrəylik və iradə nümayiş etdirmək üçün xalqı öz ətrafında sıx birləşdirə biləcək milli liderə böyük ehtiyac var idi.

Dövlət başçısı cənab İlham Əliyev ötən əsrin 90-cı illərində Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirləri dövlət müstəqilliyi üçün mühüm şərt kimi qiymətləndirərək demişdir: ***"1990-cı illərdə Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında qəbul edilmiş tarixi qərarlar Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. Məhz o sessiyada Azərbaycanın üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edildi. O vaxt Azərbaycanda hələ Sovet Azərbaycanının bayrağı dalğalanırdı. O vaxt Sovet İttifaqının dağılması haqqında heç kim düşünmürdü. O ağır, o çətin anlarda bu qətiyyətli qərarlar həm Naxçıvanı qorudu, həm də Azərbaycanın gələcək müstəqilliyini şərtləndirdi".***

1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə yenidən Azərbaycanda hakimiyyətə gələn dahi siyasətçi Heydər Əliyev ilk olaraq müstəqillik, Azərbaycançılıq ideologiyasını milli şüurda və psixologiyada, xalqın iradəsində bərqərar etməyə nail oldu, insanlarda dövlətçilik, suverenlik, vətənpərvərlik hissləri gücləndi, Azərbaycançılıq ümummilli ideologiya səviyyəsinə qaldırıldı. Həmin illərdə üzünü Azərbaycan dövlətçiliyini dağıtmaq istəyənlərə tutan ulu öndər Heydər Əliyev deyirdi: ***"Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm".***

Görkəmli dövlət xadiminin Azərbaycana rəhbərlik etdiyi 1993-cü ildən 2003-cü ilədək olan dövr dövlət müstəqilliyinin möhkəmləndirilməsi, əbədi, dönməz xarakter aldığı dövrdür. Bu dövr, birinci növbədə, onu göstərdi ki, lider, şəxsiyyət olmadan xalq öz siyasi iradəsini gerçəkləşdirə, müstəqilliyə qovuşa bilməz. ***"Mən həyatımdan keçərəm, ancaq Azərbaycanın müstəqilliyindən keçmərəm"***, – deyən ulu öndərimiz daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq, öz həyatı bahasına, gecəli-gündüzlü fədakar əməyi hesabına Azərbaycanı müstəqil dövlətə çevirmiş, dövlət müstəqilliyimizi daimi və əbədi etmişdir.

Dahi şəxsiyyət müstəqil Azərbaycan dövlətçiliyinin, bazar münasibətlərinə əsaslanan yenitipli iqtisadiyyatın inkişaf konsepsiyasını yaratmışdır. Ümummilli liderimiz "Əsrin müqaviləsi"ni imzalamaqla Azərbaycanın dünya iqtisadi sistemindəki yerini müəyyənləşdirmişdir. Bazar münasibətlərinə əsaslanan iqtisadi islahatların həyata keçirilməsi, sahibkarlığın inkişafının stimullaşdırılması, təkmil qanunvericilik bazasının yaradılması ölkə iqtisadiyyatına xarici sərmayələrin axınını təmin etmişdir. Qeyri-neft sektoru sürətlə inkişaf etməyə başlamışdır. Özəlləşdirmə proqramı uğurla həyata keçirilmiş, ümumdünya iqtisadi məkanına qətiyyətlə inteqrasiya edən ölkəmiz xammal ixracatçısından istehsal sənayesini qüdrətləndirən və əmtəə ixrac edən əlverişli tərəfdaşa çevrilmişdir. Ölkədə aqrar islahatlar aparılmış, torpaq kəndlilərin mülkiyyətinə verilmişdir. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətinin gələcək inkişaf yollarını müəyyənləşdirmişdir: bu, demokratik inkişaf və hüquqi dövlət quruculuğu, Azərbaycançılıq və vətəndaş həmrəyliyi yoludur.

Xalqımız əmindir ki, Azərbaycanın gələcəyi, inkişafı yalnız Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsindədir. 2003, 2008, 2013 və 2018-ci illərdə prezident seçkiləri bunu bir daha sübut etdi. Həmin seçkilərdə Heydər Əliyev yolunu uğurla davam etdirən cənab İlham Əliyev xalqın mütləq əksəriyyətinin səsini qazanıb Prezident seçilmişdir. Təsadüfi deyil ki, dövlət başçısı həmişə bəyan etmişdir ki, Azərbaycanda Heydər Əliyev siyasi kursu dönmədən həyata keçiriləcəkdir.

Geridə qoyduğumuz illərin nəticələrinə nəzər saldıqda diqqəti cəlb edən əsas məqam ölkədə həyata keçirilən bütün işlərin, çoxcəhətli fəaliyyətin əsas məqsədinin, aparıcı leytmotivinin Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi amilidir.

Bu gün Azərbaycan müstəqil dövlət kimi yaşayır və inkişaf edir. Bu inkişaf ölkəmizin bütün guşələrində, o cümlədən bu il muxtariyyətinin 95-ci ildönümünü böyük uğurlarla qeyd edən Naxçıvan Muxtar Respublikasında da özünü göstərməkdədir. 30 ilə yaxındır, blokada vəziyyətində yaşamasına baxmayaraq, muxtar respublikamız muxtariyyətin, müstəqilliyin işığında böyük inkişaf yolu keçmişdir. Müstəqillik tariximizin ötən 20 ildən artıq bir dövründə muxtar respublikamız 95 illik tarixi inkişaf yolunun ən dinamik və dayanıqlı inkişaf dövrünü yaşayır. Belə ki, qədim diyarımız muxtariyyət qazanmasından bu tərəfə heç vaxt indiki qədər inkişafa, uğurlara, nailiyyətlərə imza atmamışdır. Son illər rayon mərkəzlərindən ucqar dağ kəndlərinədək hər yerdə aparılan genişmiqyaslı quruculuq işləri qədim Naxçıvanın hüsnünü daha da gözəlləşdirmişdir. Həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində muxtar respublikada makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. Naxçıvan Muxtar Respublikası müstəqil Azərbaycanın yenitipli məktəblərə, səhiyyə ocaqlarına, yeni texnologiya ilə təchiz olunmuş işlək sənaye müəssisələrinə, hər qarış torpağı əkilib-becərilən kənd təsərrüfatına malik inkişaf etmiş qabaqcıl diyarına çevrilmişdir. Bu gün ərzaq təhlükəsizliyinin təmin olunduğu Naxçıvanda torpaqlar əkilir, tələbat yerli istehsal hesabına ödənilir. Muxtar respublikanın enerji təhlükəsizliyi təmin olunub, ən ucqar yaşayış məntəqəsində belə, sakinlər daimi elektrik enerjisindən, təbii qazdan istifadə edirlər. Naxçıvanın hərbi təhlükəsizliyi təmin olunub, düşmənlə üz-üzə olan sərhəd kəndlərində sakinlər təhlükəsiz şəraitdə yaşayırlar. Təbii ki, bütün bunlar Heydər Əliyev siyasi xəttinin və ulu öndərimizin əmanəti olan müstəqilliyimizin bəhrələridir.

Bu gün dinamik inkişaf yolu ilə irəliləyən Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası dövlət müstəqilliyini mühüm tarixi nailiyyətlərlə qeyd edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Bu gün müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir".***

**"Şərq qapısı"**

# Parisdə Azərbaycan-Fransa regionlararası əməkdaşlığın inkişaf etdirilməsi üzrə İdarəetmə Komitəsinin iclasında Naxçıvanla bağlı təqdimat olub

***Azərbaycan Respublikasının Fransadakı səfirliyinin Mədəniyyət Mərkəzində keçirilən Azərbaycan-Fransa regionlararası əməkdaşlığın inkişaf etdirilməsi üzrə İdarəetmə Komitəsinin 1-ci iclasında Naxçıvan Muxtar Respublikası da təmsil olunub.***

İclasda hər iki ölkədən komitənin həmsədrləri, səfirlər, diplomatlar, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəsi, eləcə də qardaşlaşmış şəhərlərin mer və mer müavinləri iştirak ediblər. İclasda yeni qardaşlaşacaq şəhərlərdən söz açılıb.

Bakı şəhərində Naxçıvan Muxtar Respublikası daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov Naxçıvan haqqında ətraflı məlumat verərək onun Nuhun vətəni, bəşəriyyətin beşiyi olduğunu bildirib. Naxçıvanın tarixindən, coğrafiyasından danışaraq onun antik və orta əsrlər dövrü maddi mədəniyyət nümunələri, tarixi və təkrarsız təbiət abidələri ilə zəngin olduğunu diqqətə çatdırıb. Bildirib ki, uzun illərdir, Ermənistanın işğalçılıq siyasəti nəticəsində blokada şəraitində yaşamasına baxmayaraq, Naxçıvanda inkişafa nail olunub, enerji və ərzaq təhlükəsizliyi təmin edilib. Müasir infrastruktur yaradılıb. Çıxışda geniş turizm potensialına toxunulub, vurğulanıb ki, qədim diyarın rəngarəng landşaftı, fauna və florası, mineral bulaqları, müalicə mərkəzləri, qədim tarixi, mövcud sabitliyi, ekoloji cəhətdən təmiz qida məhsulları burada turizmin bir çox növünün inkişafına zəmin yaradıb. Naxçıvandakı səhiyyə turizminin inkişafı sahəsində mövcud infrastrukturlar – Duzdağ Fizioterapiya Mərkəzi, Darıdağ Arsenli Su Müalicə və İstirahət Kompleksi, dərman bitkiləri, "Badamlı" və "Sirab" kimi təbii müalicəvi süfrə suları, eləcə də təktanrıçılıq abidəsi olan Əshabi-Kəhf hər il dünyanın müxtəlif ölkələrindən yüz minlərlə turisti cəlb edir.





Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Fransa arasında iqtisadi-ticarət, təhsil, mədəniyyət və elm sahələrində səmərəli əməkdaşlıqdan söz açan daimi nümayəndəliyin rəhbəri Fransada keçirilmiş bir sıra beynəlxalq iqtisadi sərgilərdə Naxçıvan şirkətlərinin də iştirak etdiyini vurğulayıb.

Qeyd olunub ki, Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilib, həmin il Azərbaycanın Gənclər Paytaxtı seçilib. Eyni zamanda 2018-ci ildə Naxçıvanda "Avropa günləri" keçirilib, Fransanın Azərbaycandakı səfirliyinin əməkdaşları muxtar respublikada səfərdə olublar. 2006-cı ildən muxtar respublikada Azərbaycan-Fransa beynəlxalq arxeoloji ekspedisiyası fəaliyyət göstərir. Aparılan araşdırmaların nəticələri müxtəlif beynəlxalq jurnal və kitablarda nəşr edilib. Hazırda Naxçıvan Dövlət Universitetində Fransız dili ixtisası üzrə ali təhsilli kadrlar hazırlanır, hər il həmin ixtisas üzrə təhsil alan tələbələrin iştirakı ilə "Frankafoniya günləri" keçirilir. Bununla yanaşı, muxtar respublikanın 50-yə yaxın orta məktəbində Fransız dili fənni tədris olunur.

Bəxtiyar Əsgərov qeyd edib ki, "Azərbaycan-Fransa birgə arxeoloji qazıntıların 10 illiyi" adlı sərgi Bakı və Lyon şəhərlərində keçirilib, sərgidə Naxçıvanda aparılan arxeoloji qazıntılar zamanı tapılan əşyalar nümayiş olunub. Naxçıvan şəhəri ilə Fransanın Möntrö-Fot-Yon şəhəri arasında imzalanması nəzərdə tutulan Dostluq və Əməkdaşlıq Xartiyasını əlaqələrin inkişafında yeni mərhələ kimi dəyərləndirən Bəxtiyar Əsgərov fransız tərəfini Naxçıvana dəvət edib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının Bakıdakı daimi nümayəndəliyinin rəhbəri tədbir çərçivəsində Fransanın Möntrö-Fot-Yon şəhərinin meri Ceyms Şeron ilə də görüşüb. Ceyms Şeron Bəxtiyar Əsgərovu Möntrö-Fot-Yon şəhərinə dəvət edib. Oktyabrın 18-də həmin şəhərdə ikitərəfli görüş keçirilək.

**Şəhla AĞALAROVA**
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Paris***
***17 oktyabr 2019-cu il***

Naxçıvan Dövlət Tarix Muzeyi – 95

# Dövlətçilik tariximizin izi ilə...

***Aqillər: “Tarix elə bir ortaq sərvətdir ki, ondan hər xalq öz dəyərinə görə pay götürür”, – deyiblər. Bu gün oğuz yurdunun tarixi keçmişinə işıq saçan, muxtariyyətinin yaşıdı Naxçıvan Dövlət Tarix Muzeyinin hər guşəsində xalqımızın yüksək mənəvi dəyərlərini yaşadan bu qiymətli payın izləri sezilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə 95 yaşını geniş şəkildə qeyd etdiyimiz muzeydə nümayiş olunan eksponatlar vasitəsilə zəngin ənənələrə malik dövlətçilik tariximizin sehrinə düşür, dünənimizdən bu günümüzə keçilən böyük yolun kiçik ekskursiyasına çıxırıq...***



### Dövlətçilik yolunda ilk addımlar – qədim tayfa birlikləri, qüdrətli dövlətlər...

Hər guşəsində tarixin dərin nəfəsi, əcdadların həyat tərzi, mədəniyyəti, adət-ənənəsi, igid oğulların mübarizə əzmi duyulan muzeyin ekspozisiya zalının xüsusi ayrılmış otaqlarından birinə daxil oluram. Budur, zəngin dövlətçilik tarixinə malik xalqımızın bu yoldakı ilk addımları sayılan tayfa birliklərinin yaranmasından başlayaraq sonrakı mərhələlər də eksponatların dili ilə nəzərimdə canlanır. Mən susuram, lal-sükuta qərq olan eksponatlar gözlərimlə “danışır”. Eramızdan əvvəl III minilliyin birinci yarısında Urmiya gölünün güney və güney-şərq hissəsini, Zəncan-Qəzvin ərazilərini əhatə edən ilk türk dövləti Arattanın yaranmasından müstəqilliyimizin əldə olunmasınadək keçilən möhtəşəm, keşməkeşli yolun xronologiyasını göstərir mənə. Antik və ilk orta əsrlər dövründə Naxçıvan torpağının ölkənin siyasi-iqtisadi yüksəlişini təmin edən, dövlətçiliyinin təşəkkül və inkişafında böyük pay sahibi olduğunu, bütün bu müsbət xüsusiyyətləri ilə hər zaman xarici dövlətlərin maraq və diqqətini çəkdiyini “söyləyir”. IV-VII yüzilliklərdə mövcud olan Atropatena, Sasanilər, X-XI əsrləri əhatə edən Səlcuqlar dövlətləri dövründə Naxçıvanın yerləşdiyi ərazilərin xəritələrini, eləcə də həmin dövlətlərin yaradılması, inkişaf istiqamətləri və süqutunun səbəblərini “izah edərək” dövlətçilik tariximizin ilk orta əsrlər dövrü barədə geniş “informasiya verir”. Xaraba Gilan ərazisindən tapılan XII-XIII əsrlərə aid mis bəzək və məişət əşyalarını, IX-XVI yüzilliklərə məxsus soyuq və odlu silah nümunələrini “göstərir”, həmin tarixi mərhələdə Naxçıvan, Əlincə və Ordubadda zərbxanaların yerləşdiyini bildirərək məni hələ orta əsrlər dövründən dövlətçiliyin əsas inkişaf istiqamətlərindən sayılan sənətkarlığın və ticarətin təşəkkül tapdığına bir daha “əmin edir”. Tarixi faktlarla “danışaraq deyir” ki, fəal xarici siyasət yeridən ən qədim Azərbaycan dövlətləri öz torpaqlarını təcavüzlərdən uğurla qoruyub, məkrli planların alt-üst edilməsində Naxçıvan torpağının coğrafi mövqeyi, Vətən, torpaq qədri bilən oğul və qızlarının mərdlikləri, yurduna bağlı insanların min bir zəhmət bahasına burada saldıqları qalaların rolu böyük olub.





Azərbaycan tarixinin parlaq səhifələrini yazan Atabəylər dövlətinin 1136-1175-ci illər dövründə Naxçıvan şəhərinin paytaxt seçilməsinin, burada dövlətin idarə edilməsinin əsasını təşkil edən ali idarələrin yerləşməsinin, bu mənada, təsadüfi olmadığını əminliklə “vurğulayır”. Həmin dövrdə qədim diyarda sənətkarlıq sahələrinin yüksələn xətlə inkişaf etdiyini, ticarət karvanlarının Naxçıvan üzərindən keçdiyini, burada bənzərsiz memarlıq abidələri – qalalar, saray, məscid, hamam və xatirə abidələri inşa olunduğunu “diqqətə çatdırır”. Həmin tarixi mərhələni əhatə edən məlumatları, Eldənizlər dövlətinin yerləşdiyi ərazilərin xəritəsini, o dövrdə zərb edilmiş sikkələri “gözlərim önünə sərir”. “Qeyd edir” ki, həmin dövr dövlətçilik tariximizin yadigarlarından biri qədim diyarda bu gün də əzəmətlə ucalan, Əcəmi memarlığının dəyərli nümunəsi, Atabəy Şəmsəddin Eldənizin öz həyat yoldaşı Möminə xatının şərəfinə tikdirdiyi eyniadlı türbədir.

XV-XVII əsrlərdə torpaqlarımızın yadelli əsarətindən azad edilməsində, dövlətçiliyimizin möhkəmlənməsində böyük rol oynayan Qaraqoyunlu, Ağqoyunlu dövlətlərindən söhbət açır, yerləşdikləri ərazilərin xəritədə “izahını verir”. Tarix kitablarından da yaxşı tanıdığım Uzun Həsənin anası Sara xatının Osmanlı sultanı II Məhmətlə diplomatik görüşünün rəsmlərini “göstərir”, eləcə də onun mükəmməl bir diplomat kimi fəaliyyətindən geniş “məlumat verərək” dövlətçiliyimizin bərqərar edilməsində kişilərlə yanaşı, qadınlarımızın da əvəzsiz payı olduğunu “bildirir”. 1501-ci ildən 1736-cı ilə qədərki dövrdə mövcud olan Səfəvilər dövləti barədə yazılı məlumatlarla “tanış edir”. Şah İsmayıl Xətainin Topqapı sarayındakı taxtının, qızıl kəmərinin, adına Təbrizdə zərb edilmiş qızıl əşrəfinin və Gəncədə kəsilmiş iki şahılıq pulların, XIV əsrdə inşa edilən Şeyx Səfi türbəsinin fotoları, zərb edilmiş sikkə nümunələri dövrün həm siyasi gedişindən, həm də iqtisadi inkişafından agah edir. Eyni guşəyə tamaşa etdikcə Şəmsəddin Eldəniz, Kəmaləddin Qara Yusif, Uzun Həsən və Şah İsmayıl Xətainin rəsmlərində ali zümrənin həmin dövrlərə xarakterik olan geyim mədəniyyəti gözlərim önündə canlanır.

### Dövlətçilik ənənələrində yeni mərhələ – xanlıq idarə üsulu

Muzeyin ekspozisiya zalının növbəti otağında dövlətçilik ənənələrini yeni müstəvidə davam etdirən və özülünü daha da möhkəmləndirən 1747-1828-ci illər çərçivəsinə sığan xanlıqlar dövrünə səyahət edirəm. Guşədəki eksponatlar məni əsası Kəngərli tayfa başçısı Heydərqulu xan tərəfindən qoyulan, Zəngəzur mahalından Araz çayı vadisinə qədər uzanan geniş ərazidə yerləşən, Qərbi Azərbaycanın böyük bir hissəsini əhatə edən Naxçıvan xanlığının xəritəsi ilə tanış edir, şəhərimizin görkəmli yerində ucalan, dövlətçilik ənənələrinin yaşadıldığı Xan sarayının şəklini, dövrə aid faktlara söykənən məlumatları görürəm. Kəngərli sülalələrindən olan İsmayıl xan, II Kalbalı xan, Hüseyn xan, Cəmşid Naxçıvanskilərin fotoları, vətənpərvər dövlət və hərbi xadimlərin fəaliyyəti ilə bağlı verilən geniş məlumatlar xanlıqlar dövrünə qısa virtual ekskursiyamı daha da zənginləşdirir. Bu məqamda qeyd etmək yerinə düşər ki, 80 ildən artıq möhtəşəm tarixi mərhələni təşkil edən Naxçıvan xanlarının gərgin fəaliyyəti nəticəsində qonşu xanlıqlarla və Qafqazda marağı olan böyük dövlətlərlə qarşılıqlı münasibətlər qurulub, ölkə ərazisində sabitlik, təhlükəsizlik təmin olunub.

Mən yenə susuram, eksponatlar “dillənir”. Naxçıvan xanlığının dövlət və döyüş bayraqları, Kəngərli süvarilərinin fəxri və döyüş bayraqları, 1853-cü ilin sonlarında Naxçıvan və İrəvanın bəy ailələrinin nümayəndələrindən təşkil olunan Naxçıvan Bəy Drujinasının döyüş bayrağı haqqında məlumatları və fotosurətlərini “təqdim edir”. Həmin guşə Gülüstan və Türkmənçay müqavilələrinin şərtlərindən “söhbət açır”, hərbi rəssam, akademik V.D.Maşkovun çəkdiyi, Ehsan xan Naxçıvanskinin də iştirak etdiyi Abbasabad qalasının açarlarının təqdimedilmə səhnəsi, eləcə də Rusiya və İran arasında Türkmənçay müqaviləsinin bağlanılması epizodunun əks edildiyi rəsm əsəri isə gözlərim qarşısında tarix hadisələrin güzgüsünə çevrilir. Xalq rəssamı Davud Kazımovun böyük ustalıqla kətan üzərinə köçürdüyü XVIII əsrin sonlarında Kəngərli xanları ailəsində dünyaya göz açan Heyran xanım Dünbulinin rəsmi dövrün xan, bəy nəslindən olan qadınlarının nümunəvi geyim mədəniyyətinə diqqəti çəkir. Ekspozisiyanın bu hissəsindəki Naxçıvan xanlığı dövrünü əks etdirən kitablar tədqiqatçılar üçün zəngin mənbə rolunu oynayır.

### Muxtariyyətdən müstəqilliyə gedən yol...

Buradakı digər otaqda sərgilənən eksponatlar isə Naxçıvanın erməni işğalından qorunmasında, bölgənin təhlükəsizliyində böyük rol oynayan, 1918-1919-cu illərdə mövcud olan Araz-Türk Cümhuriyyətindən başlayaraq muxtariyyətin qazanılmasından, ölkəmizin dövlət müstəqilliyinin əldə edilməsi üçün aparılan siyasi mübarizədən, mənfur düşmənlərimizin xalqımızın başına gətirdiyi müsibətlərdən “danışır”. Tarixdən yaxşı məlumdur ki, 1918-ci il iyunun əvvəllərində Türkiyə ordusunun 9-cu və 11-ci diviziyaları İrəvan yaxınlığındakı Uluxanlıdan hərəkət edərək iyunun 11-də Naxçıvana daxil olub. Türk qoşunları Naxçıvanın könüllülərdən ibarət taborları ilə birlikdə erməni daşnaklarını darmadağın edib, Naxçıvanda Araz-Türk Cümhuriyyəti yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə “Araz-Türk Cümhuriyyəti” elmi-tədqiqat qrupunun yaradılması bu böyük tarixi mərhələnin geniş elmi tədqiqinə işıq salacaq.

Muzeydəki eksponatlar da həmin tarixi dövrü əhatə edən məlumatların qorunub saxlanıldığını, Araz-Türk Respublikasının xəritəsində onun hüdudlarının Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarını, habelə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və sair əraziləri əhatə etdiyini göstərir. 1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti dövründə iki ilə yaxın qısa zamanı əhatə etməsinə baxmayaraq, böyük işlərin görülməsindən, həmin vaxtın siyasi sferasından bəhs edir. Dövriyyəyə buraxılan pul vahidlərinin nümunələri, İstiqlal Bəyannaməsinin mətni, dövlətçilik tariximizdə müstəsna rolu olan Azərbaycan Xalq Cümhuriyyətinin hazırda işğal altında olan torpaqlarımızı da əhatə edən geniş xəritəsi, həmin dövrə aid arxiv sənədləri maraqlı faktları yaddaşıma həkk edir. Ekspozisiya otağını nəzərdən keçirərkən eksponatlar I Qafqaz Ordu Korpusuna komandanlıq etmiş Kazım Qarabəkir Paşanın Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın erməni təcavüzündən qorunmasında göstərdiyi müstəsna xidmətlərdən “söz açır”. Gümrü, Moskva və Qars müqavilələrinin şərtlərini öyrənib, Naxçıvanın Azərbaycanın tərkibində qalmasına çalışan Behbud ağa Şahtaxtinskinin mütərəqqi fəaliyyətini əks etdirən kitabları, qəzet məqalələrini nəzərdən keçirdikdə, sanki Naxçıvan muxtariyyətinin qazanılma proseslərinin canlı şahidi oluram. Xalqımızın qəhrəmanlıq səhifələrindən olan İkinci Dünya müharibəsi illərinə gedir, vətənpərvər oğullarımız haqqında ayrı-ayrılıqda məlumatlar öyrənirəm. 31 Mart – Azərbaycanlıların Soyqırımını, 20 Yanvar və Xocalı faciələrini, Sədərək döyüşlərini, yurdsevər insanların canlarından keçdiyi anları gözlər önündə canlandıran fotolar qəlbimdə Vətənə məhəbbət, düşmənə nifrət hisslərini daha da artırır.

1969-cu ildən ölkəmizə rəhbərlik edən ümummilli liderin həyat və siyasi fəaliyyətindən, dövlət müstəqilliyimizin əldə edilməsində, Naxçıvan Muxtar Respublikasının erməni təcavüzündən qorunmasında göstərdiyi müdrik, fədakar əməyindən bəhs edən kitablar, fotoşəkillər görkəmli dövlət xadiminin xalqımız üçün gördüyü işlərin kiçik bir parçasını gözlərim önünə “sərir”. Ulu öndərin dünyaya göz açdığı evin maketi, büstü, attestat, diplom və məzun vinetkası, ümummilli liderin rəsmi işlənən xalça məndə böyük maraq yaradır.

### Dövlətçilik tariximizin parlaq səhifələri...

Muzeyin ekspozisiyası ölkəmizin dövlət müstəqilliyinin əldə olunmasından sonra ulu öndərin uzaqgörənliklə yaratdığı müasir dövlətçilik modelini, dahi şəxsiyyətin yolunu qətiyyətlə davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu siyasəti, Ali Məclis Sədrinin muxtar respublikamızın çiçəklənməsi naminə gördüyü fədakar işləri əks etdirən fotoşəkil və məlumatlarla zəngindir. “Şərəfli ömrün anları” guşəsində ümummilli liderin uşaqlıq, gənclik çağları, SSRİ dövründə yüksək vəzifələrdə çalışdığı, eləcə də özündə milli-mənəvi dəyərləri, adət-ənənələri də yaşadan, ölkəmizə və muxtar respublikamıza rəhbərlik etdiyi dövrləri əks etdirən şəkillərə baxdıqca düşüncələrə dalır, bu fenomen insanın həyatına fotoların dili ilə qısa səyahət edirəm.

Ulu öndərin ***“Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir”*** kəlamı ilə başlayan “Naxçıvan Muxtar Respublikası – 95” guşəsində sərgilənən fotolar dahi rəhbərin həyat və fəaliyyətinin Naxçıvan dövrü haqqında zəngin təəssürat yaradır. Bu möhtəşəm tarixi vərəqləyirəm. Bəli, 1990-cı il iyulun 22-si, böyük bir tarixi gün, taleyin firavan gələcəyə aparacaq dönüş nöqtəsi kimi xalqımızın yaddaşına həkk olundu. Həmin gün Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin Naxçıvana gəlişi əhalinin əsl nicatına çevrildi, hər kəs onun timsalında böyük xilaskarını tapdı. Dahi şəxsiyyət Naxçıvana rəhbərlik etdiyi müddətdə miqyası onilliklərə bərabər möhtəşəm işlər gördü. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu qədim diyarı bədnam ermənilərin işğal etməsinə imkan vermədi, onun müdafiə qüdrətini möhkəmləndirdi, hərtərəfli inkişafı üçün ardıcıl tədbirlər həyata keçirdi. Buradakı bütün fotoşəkillər, kitablar məhz görkəmli dövlət xadiminin canı qədər əziz bildiyi Naxçıvan üçün gördüyü misilgörünməmiş işlərdən bəhs edir.

Naxçıvanın muxtariyyətinin yaradılmasından indiyədək ayrı-ayrı illərdə mədəniyyət, təhsil, səhiyyə, turizm, iqtisadiyyat və digər sahələrdə artan statistik göstəriciləri də nəzərimdən yayınmır. Həmin guşədə nümayiş olunan Naxçıvan Muxtar Respublikasının yubileyləri ilə bağlı ölkə Prezidenti və Ali Məclis Sədrinin sərəncamları, son 24 ildə təmir-bərpa edilən qədim abidələrin, tikilən və yaxud yenidən qurulan sosial obyektlərin, muxtar respublikada keçirilən beynəlxalq tədbirlərin şəkilləri müasir dövr Naxçıvanında gedən böyük inkişafdan, aparılan yüksək dövlətçilik fəaliyyətindən xəbər verir. Naxçıvan şəhərinin 2018-ci ildə İslam Mədəniyyətinin Paytaxtı olması ilə bağlı hazırlanan emblem, çıxarılan poçt markası, nəşr edilən kitablar, fotolar həmin qürurverici anların unudulmaz xoş xatirəsini yaradır.

Həmçinin muzeyin 95 illiyi münasibətilə təşkil olunan sərgidə nadir tarixi fotoşəkillər, Ali Məclis Sədrinin bu mədəniyyət müəssisəsinin 95 illik yubileyinin keçirilməsi ilə bağlı 2019-cu il 2 avqust tarixli Sərəncamı, muzey işinin dünəni və bu günü ilə bağlı nəşrlər geniş yer alır.

*Ulu öndər Heydər Əliyevin* ***“Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin”*** *fikirləri ilə muzey ekskursiyam bitir. Yolboyu mədəniyyət ocağında keçirdiyim bir neçə saatın qısa xülasəsi yaddaşımda canlanır. Düşünürəm ki, illər öncə muxtariyyətimizin yaradılması bizə nə yaxşı ki 95 illiyini geniş şəkildə qeyd etdiyimiz, dövlətçilik ənənələrimizin qorunduğu Naxçıvan Dövlət Tarix Muzeyi kimi tariximizin canlı salnaməsini də bəxş edib. Şübhəsiz ki, muxtariyyət yaşadıqca bu muzey də yaşayacaq, günü-gündən zənginləşən fondu ilə tarixi kimliyimizi bütün dünyaya bəyan edəcək.*

**Nail ƏSGƏROV**

# Yurdumun rəngləri

## Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi üzvlərinin sərgidəki əsərlərindən


Araz Xudiyev ("Qanlı səhifələrdən işıqlığa doğru")


Həmzə Sadiqov ("Qurulan yurdum")


Əli Səfərov ("Qədim Naxçıvanım")


Həbibə Allahverdiyeva ("Muxtariyyət yollarında")


Cavid İsmayılov ("Çiçəklənən ana yurdum")


Həsən Qurbanov ("Naxçıvanım")

## Beynəlxalq turnirdə bu gün son turun oyunları oynanılacaq

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən 13-14 yaşlı futbolçular arasında "Naxçıvan kuboku – 95" beynəlxalq turnirində növbəti tura yekun vurulub.*

Üçüncü turda "Qarabağ" üzərində inamlı qələbə qazanan Özbəkistan Respublikasının "Əndican" komandası bu turda yerli "Araz-Naxçıvan"ı sınağa çəkib.



Gərgin keçən görüş qonaqların minimal hesablı qələbəsi ilə başa çatıb – 0:1. Bu qələbədən sonra aktivindəki xalların sayını 12-yə yüksəldən "Əndican" komandası ilk dəfə təşkil olunan "Naxçıvan kuboku – 95" beynəlxalq turnirində vaxtından əvvəl çempionluğunu qeyd edib.

Günün ikinci yarısında isə azarkeşlər daha bir maraqlı oyuna şahid oldular. Belə ki, geridə qalan son 3 turu məğlubiyyətlə başa vuran "Rekord" komandası 4-cü turda "Qarabağ"la qarşılaşıb. Görüşdə hesabı açan tərəf "Qarabağ" olsa da, ikinci hissədə ardıcıl iki qol "Rekord" komandasına qələbə qazandırıb – 2:1.

Son turdan sonra "Əndican" komandası maksimum xalla (12 xal) turnir cədvəlinə başçılıq edir. Digər 4 komandanın isə aktivində 3 xal var.

Bu gün Naxçıvan Muxtar Respublika Stadionunda keçiriləcək iki qarşılaşma turnirin digər mükafatçılarını müəyyənləşdirəcək. Öncə saat 13[00]-da meydana "Qaraqalpaqıstan" (Özbəkistan) və "Rekord" komandaları çıxacaq. Ardınca saat 15[00]-da "Araz-Naxçıvan" və "Qarabağ" komandaları qalibi müəyyənləşdirmək üçün mübarizə aparacaq.

Qeyd edək ki, bu görüşlərdən sonra təltifetmə mərasimi təşkil olunacaq.

## Basketbol Federasiyasının iclası olub

***Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının iclası keçirilib. Federasiyanın idarə heyəti üzvlərinin iştirak etdiyi yığıncağın gündəliyində Basketbol Federasiyasının fəaliyyəti, görülən işlər, eləcə də federasiyanın yeni sədr müavininin seçilməsi olub.***

Tədbirdə çıxış edən federasiyanın sədri Mahir Əliyev bildirib ki, muxtar respublikada bütün sahələrdə olduğu kimi, idman sahəsində də mühüm işlər görülür. Yaradılan şəraitdən səmərəli istifadə edən gənclərin idmana marağı artıb, bu sahənin maddi-texniki bazası möhkəmləndirilib. Şəhər və rayonlarla yanaşı, kəndlərdə də müasir idman zalları tikilərək istifadəyə verilib, uşaq, yeniyetmə və gənclərin idmana cəlb edilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilib.

Vurğulanıb ki, basketbol idman növünün inkişafı üçün müəyyən addımlar atılıb. Belə ki, verilən tapşırıqlara əsasən federasiyada qruplar yaradılıb, onlara təcrübəli məşqçilər tərəfindən məşqlərin keçirilməsi təmin olunub. Federasiya şəhər və rayonlarda da məşqçilərin fəaliyyəti ilə mütəmadi maraqlanıb, idmançıların tələb və təklifləri dinlənilib, qruplar idman ləvazimatları ilə təmin edilib.

Keçirilən yarışlar və tədbirlər barədə məlumat verən Mahir Əliyev qeyd edib ki, gələcəkdə də federasiya işini günün tələbləri səviyyəsində quracaq, komandaların tərkibinin gücləndirilməsi istiqamətində ardıcıl işlər görəcəkdir.

Sonra basketbol məşqçilərinin fikirləri dinlənilib. Çıxışlar zamanı məşqçilər uşaq, eləcə də yeniyetmə və gənclər arasında bu idman növünün inkişafı üçün atılacaq addımları müzakirə ediblər.

Sonra Turan Həsənovun Basketbol Federasiyasının sədr müavini vəzifəsinə namizədliyi irəli sürülüb. Təklif yekdilliklə qəbul olunub.

Sonda çıxış edən Mahir Əliyev bu idman növünün kütləviliyinin artırılması istiqamətində bundan sonra da tədbirlər həyata keçirəcəklərini vurğulayıb, yaradılan şəraitə görə Ali Məclis Sədrinə minnətdarlığını bildirib.

## Bədii gimnastlarımız üçün təlim-məşq toplanışı

*Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına göstərilən diqqət və qayğı nəticəsində idmançılarımız çıxış etdikləri yarışlarda, turnirlərdə diyarımızın idman ənənələrini layiqincə təmsil edirlər. İdmançıların təcrübələrini artırmaq üçün muxtar respublikamıza ayrı-ayrı idman növləri üzrə tanınmış mütəxəssislər mütəmadi olaraq dəvət olunurlar.*



Elit idman növü olan bədii gimnastikanın Naxçıvanda inkişaf etdirilməsi, bu idman növünün kütləvi hal alması, qızların gimnastikaya cəlbi istiqamətində bir çox uğurlu addımlar atılıb. Hazırda muxtar respublikamızda 150-yə yaxın azyaşlı qız bədii gimnastika idman növü ilə məşğul olur. Son olaraq Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən "Xatun" Bədii Gimnastika İdman Klubunda gimnastlara təlim-məşq keçməsi üçün Azərbaycan Gimnastika Federasiyasından 2 məşqçinin dəvət olunması bunun bariz nümunəsidir. Belə ki, ölkə gimnastika federasiyasının məşqçiləri Pakizə Səmədova və Züleyxa İsmayılova oktyabr ayının 20-dək öz təcrübələrini gimnastlarımızla bölüşəcəklər.

✍ **Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Şərur rayonu, Qarxun kənd sakini Cəfərov Ədalət Hüseyn oğlunun adına olan JN-349[B] inventar nömrəli, 10210018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Mahmudov Abbas Seyfəddin oğlunun adına olan 032128 nömrəli müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

İbrahimov Həsən Cəlal oğlunun adına olan evin 6049 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 711